# 44 günün Vətən müharibəsi: Gəncəyə qarşı ikinci terror



**Gəncə bir gün qabaq, oktyabrın 4-də Ermənistan ərazisindən atılan raket nəticəsində həlak olan 21 yaşlı Tunar Əliyevi son mənzilə yola salmağa hazırlaşırdı. Elə bu zaman şəhərin müxtəlif yerlərindən yenidən gurultu səsləri eşidildi. Xəbər yayıldı ki, ermənilər yenə atıblar, öz rəzil, alçaq, insanlığa yaraşmayan hərəkətlərini təkrar ediblər. Bu dəfə üç raket atılmışdı və zərbələr əhalinin daha sıx olduğu ərazilərə yönəldilmişdi. Yalnız xoş təsadüf nəticəsində cəmi 3 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdı. Şah İsmayıl Xətai prospektində yerləşən "Grand Qafqaz" ticarət mərkəzinə külli miqdarda ziyan dəymişdi. Bundan başqa, "İmamzadə" dini kompleksinə də düşən raket zərbələri dağıntılar törətmişdi.**

Bir qədər keçəndən sonra məlum oldu ki, raketlər Gəncə Beynəlxalq Xəstəxanasının, 34 saylı orta məktəbin, Şah İsmayıl Xətai küçəsində yerləşən mebel fabrikinin yaxınlığına, eləcə də şəhərdə "Yevlax avtovağzalı" kimi tanınan ərazilərə də düşüb.

Artıq gün kimi aydın idi ki, Ermənistan öz cinayətlərini ört-basdır etmək üçün müxtəlif bəhanələr gətirir, o cümlədən Gəncədə hərbi obyektlərin, hərbi hava limanının olmasını və buna görə raket zərbələri endirməsini əsaslandırmağa çalışırdı. Lakin raketlərin düşdüyü ərazilər bir daha sübut edirdi ki, cəbhədəki məğlubiyyətin əvəzini çıxmağa çalışan düşmən qüvvələrin məqsədi həm əhalini vahiməyə salmaq, həm də dağıntılar törətməklə çoxlu sayda insanın tələf olmasına nail olmaq idi.

Diqqət yetirin. Qeyd etdiyimiz "Bazar Store" MMC-nin "Grand Qafqaz" Ticarət Kompleksi 2017-ci ildə istifadəyə verilmişdir. Öz böyükliyünə görə bölgədə tayı-bərabəri yoxdur. Kompleks 20 hektar ərazini əhatə edir. Burada günün müxtəlif vaxtlarında alış-verişlə məşğul olan minlərlə adam olur. Hiyləgər düşmən öz cinayətkar niyyətini məhz buna hesablamışdı.

Bu dəfə Berd rayonu ərazisindən atılan raket zərbələri tam təsadüf nəticəsində insan tələfatına səbəb olmasa da, şəhərin infrastrukturuna ciddi ziyan vurdu, ayrı-ayrı obyektlər dağıldı, nəqliyyat vasitələri sıradan çıxdı.

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyevlə oktyabrın 5-də Gəncəyə atılan ikinci raket zərbələri haqqında söhbət edərkən dedi:

– Həm ayın 5-də, həm də elə ondan sonrakı günlərdə də Ermənistan ərazisindən atılan raket zərbələri insanların daha sıx yaşadığı və toplaşdığı ərazilərə düşürdü. Elə bilirdilər ki, Gəncə əhalisini vahiməyə sala biləcəklər. Amma gördülər ki, şəhəri nəinki bir kimsə tərk etmədi, həm də adamlar daha sıx birləşdilər, dəyanətli olmaları, qorxmazlıqları ilə yadda qaldılar...

**Hamlet QASIMOV,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**

Xalq qəzeti .- 2022.- 5 oktyabr.- S.7.